BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 *Humanitar elmlər seriyası* 2011

# JURNALİSTİKA

**UOT 316.77**
**UOT 654.19; 022.2**

## YUNESKO-nun İNFORMASİYA-KOMMUNİKASİYA FƏALİYYƏTİ

**S.R.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***sabir.rm@rambler.ru***

*Məqalədə vurğulanır ki, söz və ifadə azadlığı insan haqlarının özəyini təşkil edir. Fikir sərbəstliyinə nail olmadan başqa hüquq və azadlıqları bərqərar etmək mümkün deyil. Müəllif qeyd edir ki, BMT-nin yaranma səbəblərindən biri də məhz insan haqları sahəsində beynəlxalq əməkdaşlığın təşkil olunması idi. Ümumdünya səviyyəsində söz və fikir azadlığı uğrunda mübarizə beynəlxalq informasiya əməkdaşlığı ilə sıx bağlıdır. Odur ki, BMT və onun ixtisaslaşdırılmış qurumu olan YUNESKO ilk gündən başlayaraq beynəlxalq imformasiya əməkdaşlığının norma və prinsiplərini müəyyənləşdirmişlər. Bununla yanaşı beynəlxalq təşkilatlar, o cümlədən YUNESKO, dövlətlərarası əməkdaşlığın təşkili çərçivəsində mətbu fəaliyyətə, qəzet, jurnal və kitab nəşrinə xüsusi diqqət yetirirlər. Məqalədə YUNESKO-nun kommunikasiya və mətbu fəaliyyətinə geniş yer verilir.*

**Açar sözlər:** beynəlxalq təşkilatlar, YUNESKO, informasiya, mətbu orqan, beynəlxalq əməkdaşlıq

YUNESKO dünya əhəmiyyətli təşkilat vəzifəsini yerinə yetirərək beynəlxalq aləmdə həmişə «ideya generatoru və fikir retranslyatoru» rolunu oynamışdır. Bu təşkilat insanlar arasında ümumbəşəri dəyərləri təbliğ edir, çoxsaylı məsələlərdə alternativ düşüncə mərkəzi kimi fəaliyyət göstərir. YUNESKO daima dünyada plüralizmin, fikir müxtəlifliyinin, ideya bolluğunun inkişafına xidmət etmişdir. İlk günlərdən başlayaraq YUNESKO geniş informasiya fəaliyyəti ilə məşğul olmuşdur. Təşkilat müntəzəm olaraq yerli dillərdə bir neçə yüz adda qəzet və jurnal nəşr etdirir. Fəaliyyətə başladığı dövrdən indiyədək YUNESKO elm, təhsil, mədəniyyət və kommunikasiya problemlərinə həsr olunmuş 7 mindən artıq adda kitab buraxmışdır [1, 55].

YUNESKO-nun ən çox dövrü mətbuat orqanı nəşr etdiyi mərhələ 70-ci illərin ikinci yarısına təsadüf etmişdir. Həmin illər təşkilatın buraxdığı dövrü nəşrlərin sayı 250-yə çatmışdır. 1985-ci ildə onların sayı 50-yə qədər azalmışdır. Hal hazırda YUNESKO 200-dən arıq dövrü mətbuat orqanı və 100-dən artıq başqa nəşr çap etdirir. Bunların sırasında ən çox tanınan və nüfuzu ilə

seçilən «YUNESKO-nun kuryeri» jurnalıdır. Nəşr 1948-ci ildə YUNESKO Katibliyinin informasiya bülleteni kimi meydana gəlmişdir. 1954-cü ildən «YUNESKO-nun kuryeri» jurnal formatında ingilis, fransız və ispan dillərində nəşr olunmağa başlamışdır. İl ərzində jurnalın 11 nömrəsi buraxılırdı. 1957-ci ilin yanvarından başlayaraq jurnal rus dilində də çap olunur. Hal-hazırda «YUNESKO-nun kuryeri» dünyanın 32 dilində nəşr edilir. Hazırkı dövrdə jurnalın ümumi baş redaktoru Böyük Britaniyalı Ceyms Bernetdir. Onun müavini – Sintiya Qutmandır. Redaksiyanın ən tanınmış jurnalisti Bolqarıstandan olan Yasmin Şopova hesab olunur. Hazırda rusdilli nəşrin redaktoru Viktoriya Kalininadır [2]. Keçmiş illər ərzində «YUNESKO-nun kuryeri» təşkilatın aparıcı informasiya vasitəsinə çevrilmişdir. Onun səhifələrində dünyanın bütün bölgələri üzrə YUNESKO-nun fəaliyyəti, məqsədləri və qarşıdakı vəzifələri öz əksini tapır.

2006-cı ilin mart ayından başlayaraq «YUNESKO-nun kuryeri» aylıq İnternet-nəşr formatında altı rəsmi (ingilis, fransız, ispan, ərəb, rus və çin) dildə oxuculara təqdim olunur. 2007-ci ildə jurnal özünün 60 illiyini qeyd etmişdir. Bununla əlaqədar oxuculara yeni bölmələr təqdim olunmuşdur. «Hadisələr bucağından» adlanan bölmədə dünya şöhrətli alim Xyuvert Rivzlə geniş müsahibə, «Oriyentirlər» rubrikası altında isə müxtəlif ölkələrin məşhur şəxsiyyətləri haqqında maraqlı materiallar çap olunmuşdur.

Dövrün tələbatına uyğun olaraq «YUNESKO-nun kuryeri» də dəyişir. Jurnalın 2006-cı il mart sayında «Bilgi cəmiyyəti yolunda» başlıqlı böyükhəcmli məqalədə YUNESKO-nun kommunikasiya və informasiya bölməsinin fəaliyyəti haqqında danışılır. Məqalədə söz və mətbuat azadlığının müxtəlif problemləri işıqlandırılır. İnformasiya texnologiyalarının inkişafı dövründə məlumat bazasının yaradılması və elmi yeniliklərin mübadiləsi ən vacib məsələlərdən hesab olunur.

«YUNESKO-nun kuryeri» jurnalının 2006-cı il yanvar sayı media nümayəndələrinin ekstremal şəraitdə fəaliyyətinə həsr olunub. Buraxılışın əsas mövzusu «KİV hədəfdədir» formasında səslənir. Müəllif Yasmin Şopova ayrı-ayrı ölkələrdə jurnalistlərə qarşı törədilən haqsızlıqlar, onların təqib olunması, öldürülməsi haqqında geniş material təqdim edir. Müəllif xüsusi olaraq vurğulayır ki, Rusiyada hakimiyyət orqanları jurnalistlərə qənim kəsilib. Y.Şopova yazır ki, Çeçenistan haqqında həqiqətləri yazdığına görə A.Politkovskaya qətlə yetirildi, «Novaya qazeta»nın müxbiri Y.Şekoçixin zəhərləndirildi, D.Xolodov partladıldı. Belə misallar çoxdur [2].

Söz və mətbuat azadlığını özünün başlıca qayəsi hesab edən YUNESKO bütün bu problemlərdən yan keçə bilməzdi. Jurnalın növbəti sayının əsas mövzusu "Elektron dünyada şəxsin azadlığı problemi"dir.

Qeyd etmək lazımdır ki, YUNESKO-nun nəşr etdiyi başqa jurnallar da oxucular tərəfindən rəqabətlə qarşılanır. «Muzeum» və «İmpakt» jurnalları elm və cəmiyyət problemlərinin işıqlandırılmasına, «Perspektivlər» - təhsil məsələlərinə, «Təbiət və resurslar» - ətraf mühitin qorunması, təbii ehtiyatlar-

dan səmərəli istifadə edilməsi problemlərinə, «Mədəniyyətlər» - xalqların qarşılıqlı anlaşmasının vacibliyinə həsr edilib [3].

Bu nəşrlər ingilis, fransız, ispan, 1982-ci ildən isə rus dillərində çap olunur. Rübdə bir dəfə çıxan «Beynəlxalq sosial elmlər jurnalı» ingilis, fransız və ispan dillərində nəşr olunur [3]. «Xəbərlər» bülleteni YUNESKO-nun bütün rəsmi dillərində təqdim olunur. «YUNESKO-nun illik statistik məlumat kitabı»nın nəşri də böyük marağa səbəb olmuşdur. Burada müasir sivilizasiyanın müxtəlif problemlərini əks etdirən çoxsaylı məlumatlar ümumiləşdirilmiş formada oxuculara təqdim olunur. YUNESKO təhsil məsələlərinə aid bir çox kitab və monoqrafiyalar nəşr etdirir, dövrü nəşr formatında «Xaricdə təhsil», «Təhsil üzrə ümumdünya məlumat kitabı» buraxır. Təhsildə planlaşdırma və idarəetmə üzrə mütəxəssislərə ünvanlanmış «Perspektivlər jurnalı» rübdə bir dəfə nəşr olunur.

YUNESKO-nun rəsmi dillərində çap edilən bu nəşrlər tələbələr və təhsil işçiləri tərəfindən geniş istifadə olunur. 1998-ci ildən «Xaricdə təhsil» adlı məlumat kitabçası Rusiyada nəşr olunmağa başladı və oxucuları başqa ölkələrin universitetləri arasında aparılan tələbə mübadiləsi məsələləri ilə tanış etdi. Eyni zamanda mütəxəssislər və alimlər bu nəşrdən kifayət qədər yararlanırlar. Onlar buradan yeni elmi kəşflər haqqında informasiya alır, müxtəlif araşdırmalarla tanış olurlar.

2004-cü ilin may ayından başlayaraq YUNESKO-nun dəstəyi ilə Moskvada «Mədəniyyət observatoriyası» adlı jurnal nəşr olunmağa başladı. Jurnalın təhsisçiləri sırasında Rusiya dövlət incəsənət elmi – informasiya mərkəzi çıxış edir. Nəşr ilk növbədə dünya mədəniyyətinin tarixi, nəzəri və müasir problemləri ilə məşğul olan peşəkarlara ünvanlanıb. Bununla bərabər hazırki dövrün mədəniyyət və incəsənət hadisələri ilə maraqlanan şəxslər də buradan əhəmiyyətli materiallar əldə edə bilərlər [4].

«Mədəniyyət observatoriyası» jurnalı oxucuların diqqətinə tanınmış mədəniyyətşünasların, filosofların, tarixçilərin, ədəbiyyatşünasların, bütövlükdə hümanitar elmlərini və onun müxtəlif sahələrini təmsil edən dünyaşöhrətli mütəxəssislərin məzmunlu və maraqlı məqalələrini çatdırır. YUNESKO həmçinin «Diogen», «Təbiət və resurslar», «Beynəlxalq sosial elmlər jurnalı», «Geoloji korelyasiya», «Biosfer qoruqları», «İnfoMAB» adlı nəşrlər çap etdirir.

XX əsrin sonlarına doğru təşkilat «Universal etika» layihəsi üzrə genişhəcmli araşdırmanı, demokratiya ruhunda tərbiyənin fəlsəfi məsələlərinin antologiyasını, fəlsəfə və informasiya sahəsində tədqiqatların aparılmasına dair monoqrafiyanı, «Qlobal stratiqrafik xronoloji cədvəli», «Beynəlxalq gidrologiya» seriyasından beş əsər çap etdirmişdir. YUNESKO İtaliya dövlət teleradioşirkəti olan PAİ ilə birlikdə «Multimedianın fəlsəfi ensiklopediyası»nı nəşr etdirib yaymışdır. «Avropada ali təhsil» jurnalı da oxucuların diqqətini cəlb etmişdir. Həmin jurnal YUNESKO ilə Ali təhsil üzrə Avropa mərkəzinin birgə layihəsidir və üç ayda bir dəfə işıq üzü görür. Jurnal müasir dövrdə ali təhsilin əsas problemlərini, onun inkişaf meyllərini özündə əks etdirir. Burada

həmçinin ali təhsil sahəsində aparılan tədqiqatlar, hazırki hadisələr haqqında ətraflı informasiya özünə yer tapıb. Baxmayaraq ki, jurnal əsasən Avropa və Şimali Amerika ölkələrinin təhsil sisteminin problemlərinin işıqlandırılmasını özünə başlıca məqsəd hesab edir, nəşrdə həmçinin dünyanın bütün regionlarından materiallar dərc olunur.

«Avropada ali təhsil» jurnalı ingilis, fransız və rus dillərində buraxılır. Üstəlik jurnalın rus və fransız dillərindəki buraxılışları SEPES-YUNESKO-nun veb-saytında da yerləşdirilir. İldə dörd dəfə buraxılan jurnalın dekabr sayında bütün il ərzində çap olunmuş məqalələrin əlifba üzrə siyahısı verilir. Jurnalın baş redaktoru Ziland K.Barrouzdur, redaksiya heyətinə isə İ.A.Dumitreski, Z.Qrünberq daxildirlər. Nəşrə Maltanın təhsil naziri M.Ferzon kuratorluq edir. Texniki redaktor vəzifəsini Buxarestdən olan Ş.Bode icra edir.

YUNESKO tərəfindən 1995-2005-ci illər Bilik onilliyi elan olunmuşdur. Həmin aksiyanın təşəbbüskarlarından biri olan «Avropada ali təhsil jurnalı» bu mövzunu müntəzəm olaraq geniş işıqlandırmışdır.

Bütün dünya üzrə YUNESKO-nun 50-dən artıq informasiya xidmətləri fəaliyyət göstərir. Bununla bərabər təşkilatın çoxsaylı məlumat mənbələri, biblioqrafik və tamhəcmli materialların informasiya bazası mövcuddur. Məlumat bazasına on-line rejimində istənilən vaxt daxil olmaq mümkündür. Bunun üçün xüsusi olaraq «UNESTHES (YUNESKO Thesaurus)» adlı indeksləşdirilmiş termindən istifadə etmək gərəkdir. Məlumat bazasında axtarış da bu termin vasitəsi ilə həyata keçirilir.

Hal-hazırda YUNESKO çoxsaylı ekoloji yönümlü jurnallar da çap etdirir. Dünya mədəniyyətinin problemlərini işıqlandırmağa və tolerant düşüncə tərzini formalaşdırmağa can atan jurnal «Sənin evində əmin-amanlıq olsun» adlanır. «Səma rəngi» jurnalı ədəbi-ekoloji almanax roluna iddia edir və gənc auditoriyaya ünvanlanıb. «Etnosfera» başlıqlı nəşr özünün informasiya–maarifləndirici və analitik xarakterli olduğunu qeyd edir. «Ekos» - ekoloji yönümlü jurnalların qabaqcılıdır. O, universaldır və planetimizin gələcəyi haqqında müzakirələrdə iştirak etmək istəyən oxucular üçün çox maraqlıdır.

Beləliklə, YUNESKO-nun nəşr etdiyi jurnallarla, onların səhifələrində yerləşdirilmiş materiallarla tanış olduqda yüksəksəviyyəli elmi-populyar publisistikanın şahidi oluruq. Bu nəşrlərlə əməkdaşlıq edən jurnalistlər dünyada mövcud olan qlobal problemləri və onların həlli üçün müxtəlif mədəniyyətləri və düşüncələri təmsil edən insanların birləşməsinin vacibliyini əsaslı formada və inandırıcı şəkildə oxuculara çatdırırlar.

Öz məqsəd və məramlarını həyata keçirmək üçün YUNESKO dünyanın müxtəlif jurnalist təşkilatları ilə hərtərəfli əməkdaşlıq edir. Təşkilat insanların ümümbəşəri dəyərlər sisteminə girişini təmin etməyə çalışır. Ümumi strategiyanın bir istiqaməti də dünyanın müxtəlif regionlarında baş vermiş konfliktlərdən sonra orada müstəqil, plüralist kütləvi informasiya vasitələrinin təşkil edilməsidir. Bu layihələr «YUNESKO-nun kuryeri», «Perspektivlər» jurnallarında

daha geniş və əsaslı formada öz əksini tapır [5]. Kütləvi nəşrlər sırasında «Mədəniyyətlər», «Dünya mədəniyyətləri» adlı jurnallar əsas yerləri tutur.

Jurnalların müxtəlif dillərə tərcümə edilməsi ilə təcrübəli mütəxəssislər məşğul olurlar. Onlar həm də elmin həmin sahəsində ixtisaslaşan şəxslərdir. Bəzən elmi məqalələrin tərcümə edilməsini müəlliflərin özləri həyata keçirirlər. Jurnalların satışından daxil olan vəsait redaksiyaların texniki vasitələrlə təhciz edilməsinə, müəlliflərin maddi təminatına, poliqrafik bazasının inkişafına və gəlir gətirməyən kitab və başqa bülletenlərin nəşr edilməsinə yönəldilir.

Hal-hazırda YUNESKO regionlar, mədəniyyətlər və ölkələr arasında mövcud olan qlobal informasiya problemlərinin və ziddiyyətlərin aradan qaldırılmasında əsaslı rol oynayan, bəlkə də yeganə beynəlxalq vasitədir. Bu təşkilat öz fəaliyyətində idrakın, yeni ideyanın və bəşəriyyətin praktiki addımlarını birləşdirməyə çalışır. YUNESKO üzv–dövlətlərə qeyri–maddi mədəni irsi qoruyub saxlamaq və populyarlaşdırmaq məsələsində hərtərəfli yardım göstərir və onlara dəstək verir. Bu irsin gələcək nəsillərə çatdırılması ictimai fikirdə möhkəmlənməli, dərin kök salmalıdır. Hazırki YUNESKO müəyyən mənada harmonik dünyanın kiçik modeli kimi qəbul oluna bilər. Bu mənada YUNESKO bütün ölkələrin bərabərhüquqlu olmasına çalışır. Təşkilat mədəniyyət müxtəlifliyinə hörmət, qarşıda duran problemləri anlaşma və konsensus yolu ilə həll etmək istəyi ilə fəaliyyət göstərir.

Qlobal beynəlxalq təşkilatın çoxsaylı strukturlarının fəaliyyətində ən prinsipial məqam kommunikativ prosesin mövcudluğudur. Faktiki olaraq YUNESKO çərçivəsində xalqların və mədəniyyətlərin böyük və tarixi dialoqu baş verir.

Qeyd etmək lazındır ki, böyük miqyasda mədəniyyət müxtəlif xalqların milli mədəniyyətlərinin özünəməxsusluğu nəzərə alınmaqla ümumbəşəri hadisə kimi qiymətləndirilir. İdeal planda ümumbəşəri mədəniyyət özündə bütün xalqların yüksəksəviyyəli milli nümunələrini birləşdirir və dünyanın inkişafında yeni mərhələ kimi qəbul olunur. Tanınmış filosof-alim R.Abdulatipov haqlı olaraq vurğulayır ki, mədəniyyət dili, təhsili, incəsənəti, elmi potensialı özündə cəmləşdirən dar bir sahə deyil. O, həm də, konkret xalqın mənəviyyat və sivill səviyyəsinin başlıca göstəricisi kimi çıxış edir. Mənəviyyat göstəricilərinin kökündə həqiqətin axtarılması, demokratiya uğrunda mübarizlik, xeyirxaxlıq, insana hörmət, onun şərəf və ləyaqətinin gözlənilməsi, milli və dini ayrıseçkiliyə yol verilməməsi dayanır. Mənəvi dəyərlərin itirilməsi prosesi baş verən məkanda hər hansı bir xalqa hətta elmin və təhsilin yüksək səviyyədə inkişaf etməsi kömək edə bilməz.

Hal-hazırda bir çox dünya dövlətləri informasiya cəmiyyətinə qədəm qoyur. Qeyd etmək lazımdır ki, informasiya cəmiyyətinin başlıca tələbi insan azadlıqlarının bərqərar olunmasıdır. Çünki məhz azadlıq insanlara yeni bilik əldə etməyə, jurnalistlərə öz peşələrini layiqincə yerinə yetirməyə, vətəndaşlara hökumətdən lazımi hesabat tələb etməyə imkan verir. Aşkarlıq, informasiyanı sərbəst axtarmaq, yığmaq və yaymaq hüququ olmadan heç bir kom-

munikasiya inqilabı baş tuta bilməz və qurulması nəzərdə tutulan informasiya cəmiyyəti ölü doğulacaq.

YUNESKO-nun vasitəçiliyi ilə təşkil olunan konfranslar və beynəlxalq tədbirlər informasiya cəmiyyətinin qurulmasına dair milli yanaşmanı başqa ölkələrin və xalqların təcrübəsi ilə müqayisə etmək və ondan yararlanmaq üçün əvəzolunmaz şərait yaradır. Beləliklə, YUNESKO-nun əsas fəaliyyət forması birgə tədqiqatların aparılması, lazımi vəsaitlərin toplanması, beynəlxalq institutların yaradılması, geniş informasiya-kommunikasiya sisteminin təşkil edilməsidir. Təşkilat aktual problemlərə həsr olunmuş konfransların, seminarların və dəyirmi masaların təşkil edilməsi vasitəsilə dünya ictimai fikrinə təsir etməyə çalışır. Sosial və hümanitar sahədə YUNESKO-nun əsas diqqəti insan haqlarının qorunmasına və həqiqi demokratiyanın bərqərar olunmasına yönəlib.

## ƏDƏBİYYAT


1. Пирадов А. ЮНЕСКО и актуальные проблемы современности. Международная жизнь, 1979, № 6, 49-55 с.
2. http://typo38.unesco.org/ru/cour-09-2009.html
3. http://portal.unesco.org/culture/fr/ev.php
4. Газ. «Известия», Москва, 2004, № 79, 31 мая, 3 с.
5. http://www.unesco.org/courier/2000_02/uk/dossier/intro.htm


## ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННАЯ ДЕЯТЕЛЬНОСТЬ ЮНЕСКО


**С.Р.МАМЕДОВ**


## РЕЗЮМЕ


ЮНЕСКО играет важную роль в международном обмене информацией. Начиная с первых своих шагов это специализированное учреждение ООН разрабатывала основные принципы международного информационного сотрудничества. Параллельно с этим ЮНЕСКО активно занималась информационно-коммуникационной деятельностью. Организация в разные годы издавала более 250 периодических изданий, множество книг, брошюр, бюллетеней. Эти издания отражали основополагающие проблемы современной науки, культуры, образования, коммуникации. Газеты и журналы, которые издаются ЮНЕСКО, выходят на разных языках, знакомят читателей с современными тенденциями развития мировой цивилизации.



**Ключевые слова:** международная организация, ЮНЕСКО, информация, печатный орган, международное сотрудничество

## INFORMATION-COMMUNICATION ACTIVITY OF UNESCO

**S.R.MAMMADOV**

**SUMMARY**

UNESCO plays an important role in the international information exchange. Since its first steps, this specialized establishment of the United Nations developed main principles of the international information cooperation. Parallelly, UNESCO is actively engaged in information-communication activity. The organization has published more than 250 periodicals, set of books, brochures, bulletins in different years. These editions reflect basic problems of modern science, culture, education and communications. Newspapers and magazines of UNESCO are published in different languages and acquaint readers with modern trends of development of the world civilization.

**Key words:** international organizations, UNESCO, information, publications, the international cooperations